

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 24-25
(7073-7074) ❁ Cümə axşamı, 4 aprel 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik




## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in baş katibi Lamberto Zannierin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Dövlət başçısı İlham Əliyev Gürcüstanın xarici işlər və müdafiə nazirlərini, Mərakeş Krallığının daxili işlər nazirini, Böyük Britaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirini, habelə Asiya İnkişaf Bankının vitse-prezidentini qəbul etmişdir.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşına ali hərbi rütbələrin verilməsi və onların orden və medallarla təltif edilməsi haqqında sərəncam imzalamışdır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amangeldi Jumabayevin etimadnaməsini qəbul etmişdir.

* * *

Prezident İlham Əliyev paytaxtın Suraxanı rayonu ərazisindəki «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunda aparılan bərpa və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.

* * *

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında inşa edilən yeraltı park, bağ və fəvvarələr kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olmaq məqsədilə həmin əraziyə baş çəkmişlər.

* * *

Abşeron rayonunun Masazır qəsəbəsində 760 məcburi köçkün ailəsi üçün yeni salınmış məhəllə istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

**M. RƏHİMOV.**

## «Azərbaycan Respublikasında 2013-cü ilin «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi ilə bağlı Tədbirlər Planı»nın təsdiq olunması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

"2013-cü ilin Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 yanvar tarixli 2664 nömrəli sərəncamına uyğun olaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi müəyyən edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının ərazisində informasiya-kommunikasiya texnologiyalarının inkişafı və ondan istifadə, elektron hökumətin formalaşdırılması üzrə tədbirlərin həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 28 mart 2013-cü il.*

## Makroiqtisadi göstəricilər müsbət istiqamətə dəyişməkdədir

Dövlət Statistika Komitəsi cari ilin yanvar-fevral ayları üzrə sosial-iqtisadi sahədə əldə edilən nəticələri açıqlamışdır. Açıqlamalar göstərir ki, makroiqtisadi göstəricilər cari ilin yanvar ayında da olduğu kimi fevral ayında da müsbət istiqamətə doğru dəyişmişdir.

İlin iki ayı ərzində ölkədə ümumidaxili məhsul istehsalı keçən ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz artaraq 8,3 milyard manata çatmışdır. Əlavə dəyərin 54,6 faizi sənayedə (5,7 milyard manat), 7,1 faizi tikintidə (1 milyard 680,1 milyard manat), 7,6 faizi ticarətdə və pullu xidmətdə, 6 faizi nəqliyyatda, 1,8 faizi rabitədə, 2,4 faizi kənd təsərrüfatında, 13,4 faizi digər sahələrdə yaradılmışdır. İki ay ərzində adambaşına 902,6 manatlıq əlavə dəyər istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 1,8 faiz çoxdur.

Qeyri-neft sektorunda əlavə gəlir 48,9 faiz istehsal olunmuşdur. Başqa sözlə 2012-ci ilin ilk iki ayı ilə müqayisədə artım 10,5 faiz təşkil etmişdir. Neft-qaz sektorunda isə 2,6 faiz azalma qeydə alınmışdır.

İki ay ərzində ümumi sahəsi 246 min kvadratmetr olan yaşayış evləri, 1100 şagirdlik məktəb binaları, növbədə 130 nəfəri qəbul etmək imkanına malik ambulatoriya-poliklinika, 242 yerlik məktəbəqədər təhsil müəssisəsi, 164 yerlik klub, Qəbələdə Mədəniyyət Mərkəzi, Atıcılıq klubunun birincii mərhələsi, heyvandarlıq-südçülük kompleksi, üzüm emalı zavodu və digər obyektlər istifadəyə verilmişdir.

Yanvar-fevral aylarında əhalinin hər nəfərinə düşən gəlirlər orta hesabla 4,4 faiz olmaqla 517,6 manata çatmışdır. Məlumdur ki, gəlirlərin çoxalmasında əməkhaqqının artımı mühüm əhəmiyyət kəsb edir.

Keçən ilin müvafiq dövrünə görə bu dövrdə muzdla işləyənlərin orta aylıq əməkhaqqı 8,1 faiz artaraq 398,1 manat olmuşdur.

Gəlirlərin artması istehlak mallarına olan tələbatı da artırmışdır. İki ay ərzində əhali istehlak bazarından 2 milyard 847,5 milyon manatlıq mal almış və 943,4 milyon manatlıq pullu xidmətlərdən istifadə etmişdir. Müvafiq surətdə əmtəə dövriyyəsi 8,8, o cümlədən ərzaq məhsullarının satışı 2,1, qeyri-ərzaq malları satışı 18,6, pullu xidmətlərin həcmi 7,2 faiz artmışdır.

Hesablamalara görə fevral ayında yanvar ayı ilə müqayisədə istehlak mallarının qiymətləri və qiymət tarifləri 0,5 faiz, o cümlədən ərzağın qiyməti 1 faiz bahalaşmış, xidmət tarifləri və qeyri-ərzaq mallarının qiymətləri isə dəyişməmişdir.

**Nadir ATAKİŞİYEV.**

## Azərbaycan–Türkiyə–Gürcüstan biznes forumu Qəbələdə keçiriləcək

İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə mayın 21-də Azərbaycan—Türkiyə—Gürcüstan biznes forumu Qəbələdə keçiriləcəkdir. 3-cü dəfə keçiriləcək biznes forumda iqtisadi əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə ediləcəkdir.

Xatırladaq ki, bundan əvvəlki Azərbaycan—Türkiyə və Gürcüstan arasında üçtərəfli formatda biznes forum Tbilisi və Qars şəhərlərində keçirilmişdir.